## SEYİD NİGARİNİN ŞEİRLƏRİNDƏ ƏKSİNİ TAPAN ƏNƏNƏVİ DİNİ-TƏSƏVVÜFİ MƏZMUNLAR

*Pərvanə Bayram*
*Qafqaz Universiteti Pedaqoji Fakültəsi*
*Türk Dili və Ədəbiyyatı Bölməsi*

## ТРАДИЦИОННЫЕ РЕЛИГИОЗНО-СУФИТСКИЕ СЮЖЕТЫ, НАШЕДШИЕ ОТРАЖЕНИЕ В СТИХОТВОРЕНИЯХ СЕЙИДА НИГЯРИ.

*Парвана Байрам*
*Педагогический Факультет Университет Кавказ*
*Кафедра Турецкого Языка и Литературы*

Резюме
Диван Сейида Нигари привлекает внимание своим богатством и разнообразием. Основное место в стихотворениях Нигари занимают религиозно-суфитские взгляды, связанные с пропагандой основных принципов религиозного направления Нагшибенди, последователем которого он являлся.
Ключевые слова: религия, суфизм, Диван Нигари

## TRADİTİONAL RELİGİOUS-SOPHİST CONTENTS REFLECTED İN SEYİD NİGARİES POEMS.

*Parvana Bayram*
*Qafqaz University Pedagogical Faculty*
*Department of Turkish Language and Literature*

Abstract
Divan of Seyid Nigari attracts reader’s attention by its richness and beauty. Being a tarikat poet, Nigari used the main religious-sophist principles of Nagshibendi tarikat as a main theme of his poems.

Seyid Nigari Divanı içindəki mövzu zənginliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Onun şeirlərində bir təriqət şairi kimi Nəqşibəndi təriqətinin əsas prinsiplərinin təbliği ilə bağlı dini-təsəvvüfi görüşlər əsas yer tutur. Bununla bərabər Nigari şeirində ilahi eşqin tərənnümü ön plandadır. Ancaq şair, bu əsas mövzunun işığında digər məsələlərə də toxunur, insan, cəmiyyət, din-təsəvvüf, təbiət münasibətləri ilə bağlı maraqlı mülahizələr yürüdür.

İslamiyyətin qəbulundan sonra bu dini mənimsəyən bütün xalqlar zaman keçdikcə ortaq bir mədəniyyət dairəsinə girmiş oldular. Bu ortaq zövq və mədəniyyət özünü elm və sənətdə də göstərərək memarlıqdan tutmuş ədəbiyyata qədər incəsənətin bütün sahələrinə hakim oldu. Ədəbi əsərlərdəki janr və mövzu bənzərliyi, ifadə tərzi və ədəbi qəhramanlar da bu ortaq zövqün təzahürüdür. İslamiyyətin təsiriylə əvvəlcə Ərəb dilli İslam, daha sonra isə İslamı qəbul etmiş başqa xalqların ədəbiyyatları getdikcə inkişaf edərək İslama qədərki milli və məhəlli qəhramanları, tarixi olayları əhatə edir. Bu sintez Türk ədəbiyyatında da özünü qabarıq göstərərək eyni qəhramanlar və tarixi hadisələrin ədəbi əsərlərə mövzu olması ilə nəticələnir. Nizami Gəncəvi, Xaqani Şirvani Türk şairləri Ərəb və Fars ədəbi qaydalarına öz adət-ənənələrini, milli xüsusiyyətlərini şeir və sənətlə bağlı görüşlərini də əlavə edərək milli ədəbiyyatlarını meydana gətirirlər. Bu məşhur adlarla yanaşı öz milli ədəbi ənənələrinə söykənən, milli janrlarından olan heca janrında əsərlər yazan Türk şairlərini də qeyd etməliyik. XI-XII əsrlərdə Kutadgu Biliq, Atabetül Həqaiq, Əhməd Yəsəvinin Divan-ı Hikməti də belə nümunələrdəndir. Yunis İmrənin XIII əsrdə yaranan ilahiləri də eyni ortaq düşüncənin milli bir zəmində ortaya çıxmasıdır. Klassik Türk ədəbiyyatının bu ortaq düşüncədən doğan müştərək mövzularına nəzər salsaq bunları belə qruplaşdırmaq olar:

1. İslam Dininin qayda qanunlarını, ehkamlarını özündə toplayan Quran-ı Kərim, Quran-ı Kərimdə keçən ayə və surələrin açıqlamaları, qissələr, məsələn Yusif və Züleyxa, Yunis, Eyyub, Xızır vb peyqəmbər qissələri.
2. İslam tarixində baş vermiş tarixi hadisələr: Bədir, Uhud savaşları, Kərbəla hadisələri, İslamiyyətin qəbulu və yayılması uğrunda edilən savaşlar-qazavatnamələr, Ərəb ədəbiyyatında İslamiyyətdən əvvəl- Cahiliyyə dövrinün eşq və məhəbbət hekayələri- Leyli və Məcnun, Vərqa və Gülşah, Vamiq və Əzra vb.
3. Fars ədəbiyyatından və mitologiyasından ədəbiyyatımıza geçmiş məzmunlar, Rüstəm Zal, Xosrov və Şirin, Keyxosrov, Bəhram Gur və adlarını sadalamadığımız başqa qəhrəman və hadisələrdir.

Ayrıca Qərb ədəbiyyatından- daha çox da Yunan mitologiyası, fəlsəfəsi, elmindən bəzi adlar və hadisələr də bu ədəbiyyatın mövzu dairəsinə daxildir. Bütün bunlar bir araya gələrək Türk ədəbi zövqünün, adət-ənənəsinin və həyat tərzinin də birləşməsiylə klassik Türk Ədəbiyyatında öz əksini tapmşdır. Bu qısa xülasədən sonra Nigari Divanındaki əsas mövzuların təsnifinə keçək:

1-**Allah**

Sufi bir şair olan Nigarinin Divanındaki şeirlərin çoxunda Allahdan, onun isimlərindən bəhsedilməkdədir. Şairin münacat şəklində yazılmış şeirləri çoxdur. Bunlardan divandakı 8, 47, 22, 23, 24 nömrəli qəzəllər, tərkib və tərci bəndlərdəki bəzi bəndlər, bəzi qitə və rübailər, xüsusiylə də Çaynamə məsnəvisində münacat bölümləri şairin bu türdə yazdığı gözəl nümunələrdəndir.

Divanda Allah, Xuda, Tanrı, İlah, Səttar, (Səttarul-uyub-eybləri örtən) Cəlal, Cəmal, Rabbil-aləmin, Qafur, Səməd, Əhəd, Vədud, Yəzdan, Feyz-i Feyyaz, Hu, Hayy , Fəttah, Rəhman, Hak, Çalab, Şafi, Xüdavənd, Hadi, Qadir-i Mütləq, Sahib-i Qüdrət, Razik, Padişah-ı Aləm, Ləm-Yəzal (sonu olmayan, baki, qalıcı), La-Fəta, Gufran, Gaffar kimi adlarla tez tez qarşılaşırıq. Şair Allahı ilahi sevgili olaraq görür. Bəşəri eşqdən bəhs edən qəzəllərində belə ani bir dönüşlə ilahi eşqə keçər. Hər fürsətdə Allahdan, onun ucalığından və kəremindən bəhs edir. Özünü ilahi eşqə məzhər olmuş yaxşı bəndələrdən sanan şair bunun üçün fürsət düşdükdə Allaha şükr edir.

Aşağıda Nigari Divanında yer alan Allahın adlarının-Əsmai-Hüsnanın keçdiyi bir neçə beyti nümunə olaraq aşağıda veririk:

Ne gam ey dil geçer evkatımız isyan ile kim
Bari Settarül-uyub vasfını gufran didiler

Tarik-ı mihrdə feyz-i tevəkküldür gören karı
İrişmez feyz-i Feyyaza ki her kim fikr-i zad eyler

Sanma bizi peymane-keş-i bade-i takiz
Sermest-i ezel bade-keş-i Lem-yezeliz biz

**2-Mələklər**

**a) Cəbrail**

Bütün klassik divanlarda olduğu kimi Nigari Divanında da mələklərdən çox bəhs edilir. Bunların içində də ən çox vəhy mələyi olan Cəbrailin adı tez tez çəkilir. Cəbrail, Allahın vəhylərini peygəmbərlərə gətirməklə vəzifələndirilmiş bir mələkdir. Gözəl və əzəmətli bir şəkildə görülməktədir. Şeirlərdə ondan Cəbrail, Cibril-i Əmin, Ruhül-Qüdüs olaraq bəhs edilir. Şair, şeirlərdə Cəbraili, peydəmbərimizin və əbədi sevgilinin cəmalını gördüyü üçün mədh edir: “Cəbrail də sevda kimi peyqəmbərlərin cəmalinə aşiq olmuşdur” deyir. Bu böyük mələk şeirlərdə ədəbi zövqün bəlirtisi olaraq daha çox İsa peyqəmbərin anası olan Məryəmə ilahi ruhu üfləməsindən ötürü Ruhül-Qüdüs adıyla anılır. Cəbrail, Nigari Divanında da daha cox bu səbəblə anılmaqdadır. Cəbrayıla zülcinah-çok tərəfli, hər yana hər tərəfə gedə bilən də deyilir. Onun adlarından biri də mələklərin böyüyü mənasına gələn Kərrubdur.

Esef eyler melek ü reşk felek kerrublar heyhat
İnan-ı zü'l-cenahın vakt kim Ruhu'l-emin almış

Dualar eyledikce ol melek-simaya sad amin
Yemin-i arşdan ihlas ile Ruhul-emin eyler

Feyz-i Ruhul-kuds ey asar-ı lalin sayesi
İzn virmezse lebin ihya Mesiha eylemez

Kıble-i alem-i kudsi ser-i kuyundur kim
Zayiri zümre-i ervah Cibril mir-i hac

**b) Əzrail**

Bu mələk dörd böyük mələkdən ikincisidir. Vəzifəsi Allahın insanlara əmanət olaraq verdiyi ruhu geri almaqdır. Əzrail, şeirlərdə Kabız, Cənab-ı Kabız olaraq anılır.

Cenab-ı Kabız-ı ervahdan vehm eylemez gönlüm
Leb-i cananıla canım eger kim ittihad eyler

c) **Kiramən Katibin**- yazıcı mələklərdir, İslam dininə görə insanların hər iki çiynində də hər zaman onların etdikləri işleri yazmaqla vəzifələndirilmiş mələklər oturur. Bu mələklərə Kiramən Katibin deyilir. Sağda oturan mələklər insanın yaxşı əməllərini, solda oturanlar isə pis əməllərini əməl dəftərinə qeyd edirlər.

Axirətdə də dəftəri sağ tərəfdən verilən bir ruh cənnətə, soldan verilən isə cəhənnəmə göndərilir.

İrişmiş ol yire kirdar-ı karım terk idüp karın
Kiramen katibin her dem yazar suzane dil-derdim

Saki lutf eyledi sağdan bana bir cam-ı ferah
Eyledi şad ki sağdan virilen name gibi

**d) Cinlər**

Nigari Divanında cin və pərilərdən də bəhs edilir. Quranı Kərimdə keçən "Biz insanları və cinləri bizə itaət etsinlər diyə yarattık "ayəsindən də bildiyimiz kimi kainatda insanlardan başqa görünən və görünməyən canlı varlıqlar da mövcuddur. Cinlər də bu varlıqlardandır.

Kabe-i ruyunı keşf eyle ki kurban olsun
Zümre-i cin heme vü fırka-i nas ey saki

**3-Müqəddəs Kitablar**

**a) Quran-ı Kərim**

Səmavi kitabların ismi Nigari Divanında çox geçər. Şair bunu daha çox "çar kütüb" yəni dörd kitab şəklində ifadə edər. Bu kitablar içində təbii olaraq da ən çox Quran-ı Kərimdən bəhs edir. Şair Quranı Ümmül-Kitab- kitabların anası olaraq görür. Divanda Quran-ı Kərimdən bəhs edən beytlər çoxdur.

Şam u seher uymaz yani ser-a-ser
Ders okur Kuran gözüm ağıdan

**b)Digər Səmavi Kitablar- Çar Kütüb- Dörd Kitab**

Bildiyimiz kimi Quran-ı Kərimdən başqa üç semavi kitab daha vardır. Bunlar Zəbur, Tövrat və İncildir. Zəbur Davud peyqəmbərin, Tövrat Musa, İncil isə İsa peygəmbərin qövmünə endirilmişdir.

Aşağıdaki beytdə, şair səni mədh etmək üçün başqa məddahlara gərək yoxdur. Sənin vasıfların Zəbur, Tövrat və İncildir.

Başka meddaha ne hacet sıfat-ı zatına kim
Vasıfın Mushaf u incil u Zebur u Tevrat

Sahayif-i kesir çar kütübden
Muhlise bir Kul hüvallahü yeter

**4-Ayələr, Surə Adları və Hədislər**

Divan ədəbiyyatının təməli İslam mədəniyyəti üzərinə qurulmuşdur. Əsrlər boyunca klassik Türk şairləri bu mədəniyyətin gərəkdirdiyi məzmun və ifadə vasitələrindən, mövzulardan istifadə etmişlərdir. Nigari Divanında da onun sələfləri olan Nəsimi, Füzuli, Nəbati divanlarında olduğu kimi iqtibaslardan-şeirdə ayə və hədislərdən çox geniş istifadə edilmişdir. Seyid Nigari Divanında yer alan ayə və hədislərdən bəziləri aşağıdakılardır:

a) **Nigari Divanında Keçən Ayələrdən İqtibaslar**

Nigari Divanında ayələrdən iqtibaslər çoxdur, bunları şeirlərdə keçdikləri şəkildə aşağıda veririk:
"Qabə qövseyn"-iki qaş arasındakı mesafe; "üst üste getirilen iki yay qədər, hətta daha yaxın oldu" məalindəki 9. ayədən alınmışdır[1].
"Ya ülül-əlbab"- ağıl sahibləri anlamında olan bu ifadə Quranda 16 yerdə keçməkdədir[2]. "Baisül-cəm məcməül-bəhreyn", burada da Kəhf surəsinin, "bir vakit Musa, (ona hizmət edən) gəncinə demişdi ki: Mən Xıdırla buluşmaq için iki dənizin birləşdiyi yerə çatana qədər dayanmadan gedəcəyəm vəya uzun zaman yürüyəcəyəm" məalindəki 60-cı ayədən iqtibasdır[3].

Bundan başqa Divanda Quran-ı Kərimdən "la uhsi sənaən", "acz anil-övsaf", "ev ədna", "lövla lövla", "la yuhsa", "üktüluni", "löv haşallah", "qalu bəla", "an qarib", "ləbbeyk", "leytə vü leal", "ərini ərini", "la-havfün aleyhim", "la taknetu", "mən yəzid", "əl-cudu minəl-mövcud", "lə fi husrin", "və in yekad dəva", "həl min məzid" "İnnə minəş-şiri le-hikmətən", "la tudrikühül-əbsar", "nurun ala nurin", "niməl-bədəl", "Fə-sübhanəllahi Allahü əkbər", "Lən tərani", "la taknatu", "dünya və ma fiha", "yuhyil-izam", "Tur-ı təvəlla", "ma hüvə", "la təhaf", "Rabbi ərini" "niməl-abdi", "yövmül-hisab", "la təhaf", "Allahu fe-səbrün cəmil", "Hasbi Kərəmkar və niməl-vəkil", "vallahü aləm", "əl-hamdü lil-Mövla", "la havfün aleyhim" və başqa iqtibaslar da keçməkdədir.

Virdi haber hub-ı ter mushafa kıldım nazar
**Yevme izin nazırah** geldi bu aye fale

Kıl vaslına makrun beni ey kaşı kemaneyn
**Kurbiyyet-i kavseyn**
Peyveste keman kaşı gibi mülhak-ı hüsna
Lutf eyle **ev edna**

**b) Nigari Divanında Keçən Surə Adları**

Nigari Divanında surə adlarından da geniş bir şəkildə istifadə olunmuşdur. Bunlar, Yusif, Təbbət, Şəms, Yasin, Taha, Fatihə, Fəth, İhlas, Vəl-Leylü vəd-Duha vb surələrdir.

Tahammül bayed ey dil sure-i Yusuf sana kafi
Ümidin kesmegil Haktan olursun kam-kar elbet

Sôfi **Tebbet** okudı meclis-i Kuranidə ben
**Kul hüvallah**ı mükerrer bütün İhlasımı var

**Veş-şemsi**m ızarındır **vel-leyli**m tarındır
Amma ki siyeh-halin sure-i **Duhan**ımdır

**c) Nigari Divanında Keçən Hədislər:**

Divanda hədislərdən nümunələrlə də qarşılaşırıq. Aşağıdakı beytdə şair "Söyənə qarşı dilsiz, vurana qarşı əlsiz ol" hədisinə təlmih etmişdir.
Bed diyene söyle can
Kimseye virme ziyan
Aşağıdakı beytdə isə "fəqirliyim fəxrimdir" hədisinə təlmih vardır.

Bisat-ı fakrda var bir sürurum guyiya şahan
Serir-i saltanatda bir kemine emr kulumdur
Vəya
Fakrı dila fahr bil
Fahrı dərin fakr bil

Şair, aşağıdakı beytdə "bir möminin qəlbini qırmaq Kəbənin sütunlarından birini qırmağa bərabərdir" hədisini xatırladmışdır. Bu ifadə bizə XIII əsrin sufi şairi Yunis İmrənin "Bir kəz gönül kırdın isə bu kıldığın namaz deyil" və ya

---

[1] Bilgin, A. Divan-ı Seyyid Nigari, Kule İletişim Hizmetleri Yay. İstanbul 2003.s.8. Nəcm surəsi. 53-cü ayə.

[2] Age.s.19.
[3] Age. s.23.

Gönül Çalabın tahtı, Çalab gönülə bakdı
İki cihan bedbahtı kim gönül yıkar isə
misralarını xatırladır.

Bi-ca yere erbab-ı dilin gönlünü yıkdın
Kabeye taş atdın bu şekavet ne şekavet

**5-Nigari Divanında Keçən Peyqəmbər Adları:**

Nigari Divanında Quran-ı Kərimdə adları çəkilən bütün peyqəmbərlərdən bəhs edilmişdir. Bunlar aşağıdakılardır:

**a) Adəm-** ilk insan və ilk peyqəmbər olan Adəmdən Nigarinin şeirlərində daha çox yasaq edilmiş meyvəni yediyi və ilahi əmrə uymadığı üçün cənnətdən çıxarılmağı səbəbiylə bəhs edilir. Ayrıca cənnəti gördükdən sonra bu dünyaya endirildiyinə görə cənnətin necə olduğunu "Adəmdən sor" şəklində beytlər də vardır. Adəm peyqəmbərin adıyla bərabər şeirlərdə onun xanımı və ilk qadın-insanlığın anası olan Havvadan da bəhsedilmişdir.

Ey dide-i zübde-i dü alem
Ey eşref-i nesl-i can-ı Adem

Ehl-i dildən haber al aşkı ne anlar vaiz
Ne bilür har haber-i cenneti Ademden sor

**b) Nuh**-Nuh peyqəmbər daha çox düşdüyü tufan səbəbiylə şeirlərdə anılır. Nuhun gəmisi, Nuhun tufanı

**c) İbrahim** ( Al-i İbrahim, Xəlil)- Hz. İbrahim, daha çox Nemrud tarafından atəşə atılması və bu atəşin Allah tərəfindən gülşənə çevrilməsiylə anılmaqdadır. Bundan başqa şeirlərdə oğlu İsmaili qurban etməsi və Kəbəni bina etməsi səbəbiylə də adı keçər.

Atdı ateşlere Nemrudı bizi
Gelmedi bir Halil-asa ne aceb

**ç) İsmail**- İsmail peyqəmbər şeirlərdə daha çox atası tərəfindən qurban edilmək istənməsi və onun atasına və yaradanına itaət etməsi səbəbiylə anılır.

Sana kurban ola can-ı ebi ceddi amma
Sana kurban ola İsmail ü Adem Havva

Cevrdən kılmam şikayet kim şikayet sözlerin
Al-i İbrahim Halil evlad-ı İsmail dimez

**d) Davud**- bu peyqəmbər səsinin gözəlliyi ilə məşhurdur. Divanda bir neçə dəfə adı çəkilir.

**e) Süleyman-** Süleyman peyqəmbər də şeirlərdə taxt, səltənət, insan, cin, pəri və bütün məxluqların dilini bilməsi və onlara hökm etməsi səbəbiylə zikr olunur. Nigarinin şeirlərində Süleymandan və Səba məleykəsi olan Bilqeyisdən də çox bəhs edilir. Şeirlərdən bəzilərində isə sevgilinin zülfü Süleymana bənzədilir. Bu məzmun yenidir və Nigaridən başqa bir divan şairində belə bir təşbehlə qarşılaşmadıq. Süleyman peyqəmbərdən şairin nətlərindən birində belə bəhs olunur:

Ey serv-i revan nahl-i hıraman sana kurban
Ey zülfi Süleyman gözi hakan sana kurban
Və ya
Her zaman aynıma kim menzil-i canan görünür
San Cemem kim gözüme mülk-i Süleyman görünür

**f) Yəqub**- bu peyqəmbər də daha çox çəkdiyi ayrılıq, övlad həsrətiylə ağlamaqdan gözlərinə pərdə enməsi səbəbiylə şeirlərə mövzu olmuşdur. Şair şeirlərində özünü daha çox Yəqub peyqəmbərə, genc yaşında ölən oğlu Siracəddini isə Yusif peyqəmbərə bənzədərək kədərini ifadə edər.

Külbe-i ahzanıma rahm eyleyüp endər-firak
Bir güzer kıl ey azizim gör nedir Yakubluğ

**g) Əyyub-** bu peyqəmbər də imanı, səbri və təvvəkülü səbəbiylə şeirlərə mövzu olmuşdur. Nigari Divanında da bu şəkildə keçər.

Vasf-ı nimel-abdi bulmaz olmayan sabir beli
Dərd-i sevda çekmeyen bilmez nedir Eyyubluğ

ğ) **Yusif-** Yusif peygambər ədəbiyyatımızda gözəlliyin simvoludur. Bu peyqəmbərlə bağlı qissə Qurandaki ən gözəl qissə olaraq bilinir. Şeirlərdə onunla bağlı daha çox bazar, zindan, gözəllik, bahalılık mövzuları birlikdə anılır. Nigari Divanında isə Yusiflə bağlı çox orijinal ifadələrlə qarşılaşırız: Yusif və Züleyxa, Surə-i Yusif, Yusif-ı Ziba, Yusif-i Hüsn, Yusif-i Kan, Yusif-i Təb. Şair özünü Yusif təbli, təbini isə Yusif kanı olaraq ifadə edər. Yusif kimi gözəl olan təbimizin bahalı, gözəl parçalarından Misir qafiləsinə söz xəridarlığı edirik. Vəya gözəllik bazarında cəmalının bir zərrəsi Yusifdir, gözəllərin sərdarı belə sənin saçlarına bağlanmışdır. Şair, burada sər-bəstə kəliməsiyə çox orijinal xəyallər ortaya çıxardır: başı bağlı-saçlarından bağlanmaq motivi ümumiyyətlə nağıllarda keçər. Divlər ən gözəl qızları qaçırıb saçlarından asar, özlərinə xidmət etdirirlər. Ayrıca bağlılık kəliməsi məhbəsi, zindanı anımsadır. Burada Yusif peyqəmbərin iftira nəticəsində zindana atılması hadisəsinə təlmih edilmişdir.
Hər nə şəkildə olursa olsun Yusif adı ədəbiyyatımızda gözəllik simvoludur və Nigari də bundan istər şeirləri, istər şairliyi, istərsə də sevgilisi üçün orijinal bir şəkildə istifadə etmişdir.

Sendə Yusufdan füzun-ter hubluğun ihlası var
Bir şirinsin sen mücerred Yusufun davası var

Hüsn bazarında Yusufdur cemalin zerresi
Zülfüne ser-bestedir serdar-ı hubanam diyen

Vəya

Eyliyor kafile-i Mısra haridar-ı sühan
Yusuf-tabımızın kale-i zibasından

h) **Musa-** Nigari Divanında Yed-i Beyza, Said-i Beyza olaraq da anılır. Musa peyqəmbər daha çox Allahın Tur Dağında ona təcəlli edişi, onunla danışdığı üçün Kəllimullah sifətini alması, Firovun ilə olan mübarizəsi və möcüzələri səbəbiylə şeirlərdə anılır.

İbn Mansur ene'l-Hak dimedi tenha tek
Rabbi erini sözüni söylemedi Musa tek

i) **Xıdır, İlyas-** Quran-ı Kərimdə adı keçən Xıdır və İlyas peyqəmbərlər dirilik suyunu tapmaları və insanlara kömək etmələri səbəbiylə şeirlərə mövzu olmuşdur. Rəvayətə görə Xıdır, İlyas və İskəndər Zülqərneyn dirilik suyunu tapmaq üçün qaranlıqlar ölkəsinə gedərlər. Bir müddət sonra ayrılıb ayrı ayrı axtarmaq istərlər. Bir su başında oturan Xıdır yeyəcəyi quru balığı bu suya toxunduranda balıq dirilir və ab-ı həyatın bu su olduğunu başa düşən Xıdır İlyasa da bu suyu içirdir. Daha sonra İskəndər Zülqərneynə də bildirmək istəyir ama Allah Təala ona söyləmələrini yasaq edər. Bu səbəblə İskəndər dirilik suyundan içə bilmir[4].

Gel ey İlyas elim dut ey Hıdır çek meşal-i vehhac
Meded ey şah-ı lahut el-meded ey servər-i mirac

Sultan-ı etibba-yı cihan Hazret-i Lokman
Enfas-ı Mesih nefs-i Hızr Çeşme-i hayvan

**ı) Yahya-**Divanda dünyadakı məsumaların başçısı olaraq göstərilir.

Ser-name-i masum-ı cihan hazreti Yahya
Sehhar u asa mucize nefs-i Yed-i Beyza

**j) Harun (Harun-ı Fasih)-** bu peyqəmbər Nigari Divanında daha belağətli danışması səbəbiylə anılmışdır.

Harun-ı fasih lehcesi hoş madər-i Musa
Muhtar-ı Huda Meryem-i zayendə-i İsa

k) **Zülqərnəyn (İskəndər)-** Zülqərneyndən yuxarıda Xıdır bəhsində danışmışdıq.

---

4 Necla Pekolcay, İslami Türk Ədəbiyyatı, Giriş, İst 1981, s 116–118

Çaker eyler Hind ü Habeş şahını
Hükm eyler Hıtaya hakana zülfün
Talebkaran-ı ab-ı zindegane
Gerek Karneyn-asa bir karini

Tab-ı Karneyn hükümdar-ı Huda-dadımdır
Şair-i meşrik u magrib ki bana hadimdir

**l) İdris-** Nigari Divanında bu peyqəmbərin də adı çəkilir.
Cemalin mushafından her güruh bir hizb ider tekrar
Biri İdris cennetde dersin eyliyor ezber

**m) İsa** (Məsih, Məsiha, Məryəm)-İsa peyqəmbər şeirlərdə daha çox möcüzələri ilə anılır. Bu peyqəmbər, Allahın ruhunun Cəbrailin Məryəmə üfləməsi nəticəsind anadan olması, nəfəsinin xəstələrə şəfa verməsi, ölüləri diriltməsi, ölülərə nəfəsiylə həyat verməsi- möcüz-dəm olması, təcərrüd ilə göyə çəkilməsi, üstündə dünya malından bir iynə olduğuna görə göyün dördüncü mərtəbəsində qalması və başqa səbəblərlə şeirlərdə adı keçir. Nigari, şeirlərinin İsanın nəfəsi kimi canlı, həyat verici, möcüzəli olduğunu söylər. Şeirlərdə İsa peyqəmbər ilə bərabər Ruhül Qüdüs- Cəbrail və Məryəm də anılır. Nigari Divanında İsa peyqəmbər ən çox adı çəkilən pəyqəmbərdir.
Ey dəmi nefs-i Mesihaya viren kuvvət-i ruh
Cüra-i cam-ı lebindən dilerim taze hayat

Tac-ı terk ü came-i tecrid ü halvət-hanedən
Bir Mesihül-vakt ü bir zülf-i çelipadır garaz

İğnesin rişte-i Meryemdən üzenler çokdur
Girmedi alem-i tecride həmin İsa tek

Şair aşağıdakı beytdə "gözəllərin dodaqları həyat verən, ömür artırandır; sən sadəcə İsanın dodağının həyat verdiyini sanma"- deyir.

Lal-i huban revan-bahş hayat-efzadır

Sanma kim lal-i Mesihadır iden ihya tek

**n) Məhəmməd** Pəyqəmbər (SAS) Nigarinin şeirlərində daha çox Məhəmməd, Rəsul, Əhməd, Əhməd-i Muxtar, Mustafa, Şəh-i Yesrib, Rəsulallah, Həbib, Məhbub-ı Rəbbül-aləmin, Peyqəmbər vb adlarla anılır. Nigari Divanında peyqəmbərimizdən bəhs edən çox sayıda nət vardır. Nigari, qəzəl, qəsidə, rübai, müstəzad, tərkibbənd, tərcibənd, qitə janrlarında mühtəva olaraq peyqəmbərimizi mədh edərək onun möcüzələrindən bəhs edən və ona dua edən şeirlər yazmışdır. Nigari Divanındakı 12, 13, 14, 15, 72, 99, 100, 132, 133, 154, 215, 235, 438, 444, 458, 508, 621, 633 nömrəli qəzəllər; 704, 749, 753, 770, nömrəli qitələr; 812, 814, 815 nömrəli qəsidələrin bəzi beytləri; 819, 823 nömrəli tərcibəndlərin bəzi bəndləri; 820, 821 nömrəli tərcibəndlər tamamən; heca vəzniylə yazılmış şeirlərin bəziləri; Çaynamə məsnəvisinin bəzi bölümləri nətdir. Bütün bunlar şairin peyqəmbər sevgisini göstərməkdədir. Bu qədər nətlə zənnimcə Nigari ədəbiyyatımızda ən çox nət yazan şairlərdəndir.
Sakıya teşneye sahba-yı Muhammedden vir
Sagara dök mey-i esma-yı Muhammedden vir

Ey Habib-i Kibriya ey Şah-ı cümle enbiya
Kimdi senden özge bir serdar bir sahib-liva

Sinemdedir ol dag-ı temenna-yı Muhammed
Gönlümdedir ol nar-ı tevella-yı Muhammed

**6-Dörd Xəlifə**

Nigari Divanında çar yar şəklində adı çəkilən ilk dörd İslam xəlifəsindən çox bəhs edilir. Bunlar şairin də ifadə etdiyi kimi aşağıdakılardır.

Çeragımdır yanar der çar canib
Ebu Bekr ü Ömer Osman [u] Safder

**a) Əbu Bəkir** (Sıddık-ı Əkbər, Yar-ı Gar) olaraq da bilidyimiz ilk İslam xəlifəsi Əbu Bəkirin adı Nigarinin şeirlərində çox anılır.

**b) Ömər**- şeirlərdə daha çox ədalətli olması səbəbiylə ondan bəhs edilir.

**c) Osman**- bu xəlifə daha çox Zin-Nun- yəni peyqəmbərimizin iki kızıyla evlənən şəxs olması səbəbiylə şeirlərdə adı keçər. Bundan başqa xəlifə Osman həyalılıq, ismət simvoludur. Çox həya sahibi bir insan olması səbəbiylə peyqəmbərimiz tərəfindən də təqdir edilmişdir.

**ç ) Əli** ( Fateh-i Xeybər, Heydər-i Kərrar, Heydər, Şir pəncə)- bu dörd xəlifədən sonuncusunun Nigari Divanında xüsusi bir yeri vardır. Hz. Əli şeirlərdə daha çox cəsarəti, sədaqəti, savaşqanlığı, gücü, elmi, və İslamın en güclü pəhlivanı olması səbəbylə anılır. Ayrıca seyid olan şair özünü Hz. Əlinin nəvəsi olaraq da görür. Bundan başqa Ali-əba ilə əlaqədar şeirlərdə də Əlinin adı çox keçər. Divandakı 12, 168 nömrəli qəzəllər, bəzi tərci və tərkiblərdəki müəyyən bəndlər hz. Əliyə və Ali əbaya söylənmiş natlardır. Hz. Əlidən bəhs edəndə bir neçə beytdə Qənbərin- yəni xəlifə Əlinin sadiq köləsinin adı da çəkilir və şair özünü sədaqəti səbəbiylə Qənbərə oxşadır.

Peymanem eyle çekdim peymane-i ser-şarı
İhlasım ile buldum maksudumu çün Kanber

Ser-kerde-i meydan-ı gaza cahid-i ekber
Şir-pençe-i şirane-i Kerrara bağışla

Semend-i nüh felekdən sebkat itmiş şehsüvarız kim
Habib-i çar yarız bende-i Al-i abayız biz

**7-Nigari Divanında keçən digər dini adlar**

**a) Ali-Əba, Ali-Mustafa:** Ali-əbanın Nigari Divanında xüsusi bir yeri vardır. Şair bir çox şeirində onları mədh etmiş və onlara olan sevgisini ifadə etmişdir. Ali-əba, Hz. Məhəmməd, qızı Fatıma, kürəkəni və əmisi oğlu hz.Əli, nəvələri Həsən və Hüseyindir.

Simdir sinem güherdir güft ü guyumdur tıla
Genc-i penc-i Malikem al-i aba manzuruyam

Penahımdır benim Allahu ekber
Muhammed Fatıma Sıbteyn Haydar

**b) On iki imam**: Bunlara çəhar-dəh məsum- on dörd pak məsum da deyilmişdir ki- bunlar, on iki imam ilə hz. Peyqəmbər və qızı Fatımadır.

Ey dil ne revadır hele olmak beyle magmum
Elbette yeter dadına çar dəh masum

Peyqəmbərimizin sağlığında yaşayan, onunla dost olan və onun söhbətlərində iştirak edən səhabə və ya əshabın ismi Nigari Divanında çox keçər. Bilal-i Həbəşi, Veysəl-Qarani, Hz. Həmzə, Səlmanı-Farisi vb bunlardandır.

Bundan başqa Əbu Cəhl, Qəmbər, Azər, Ali-Haşim, Kövsər, Leylətül-Qədr, Nəbi, Bəni-Haşim, İsəvi, İsraili, Musəvi, Leylə-i İsra, Razıki, Huneyn, Merhab, Burak, Kəbə, Həcərül-Əsvəd, Məhərrəm, Zinnun, Zülfüqar, Sina, İslam, Ələvi, Mərvani, Həccaci, Şirmani, Xalid, Rəfrəf, Dəccal, Mehdi, Firovun vb. dini adlarda da Divanda tez tez qarşılaşırıq.

Çıkdı çün fırka-i Dəccal vəli
ÇıkmadıMehdi Mesiha ne aceb

Sabr kıl Seyyid Nigari çekme gam kim akıbet
Hut-ı Lahut lokmasıdır gönlümüz Zin-nun olur

Nazargah-ı İlahi mazhar-ı lutf-ı Hudayız kim

Şehid-i aşk-ı ebruyuz katil-i Zil-fikarız biz

**8-Nigari Divanında Adları Keçən Qadınlar.**
Nigari Divanında qadın adları da çox çəkilir. Bunları üç şəkildə təsnif etmək olar:
1. Dini- yəni İslam tarixində adları keçən qadınlar.
2. Eşq-məhəbbət dastan və hekayələrində adları keçən qadınlar.
3. Şairin sevgilisi, xanımı və başqa yaxınları ilə bağlı qadın adları

Həvva- Adəm peyqəmbərin xanımı və insanlığın anası olaraq bilinən ilk qadındır.

Asiyə- Firovunun xanımı. Firovundan fərqli olaraq o, yaxşılığı təmsil edir. Hz. Musa peyqəmbəri uşaqlığında o böyüdüb saxlamışdır.

Fatıma- peyqəmbərimizin qızı, xəlifə Əlinin xanımıdır.

Ayişə- xəlifə Əbubəkirin qızı, peyqəmbərimizin xanımıdır.

Bilqeyis- adı daha çox Süleyman peyqəmbərlə birlikdə anılır. Səba məlikəsidir. Hüdhüd quşu vasitəsiylə Süleyman peyqəmbərlə danışıb xəbərləşdikləri rəvayət olunur.

Züleyxa- Misir hökmdarının xanımıdır. Yusif peyqəmbərə olan eşqinə qarşılıq görməyincə böhtan ataraq onu zindana atdırtmışdır. İkisi, də ədəbiyyatımızda eşqin və gözəlliyin simvolu olaraq bilinir.

Leyli, Şirin, Əzra, Gülşah, Zeynəb, Əsli, Səlma - bunlar da məhəbbət dastan və hekayələrində adları çəkilən qadın qəhramanlardır.

Gönül ah ider ağlar gözüm zira ki bular
Kerbela-yı hasretin Zeynebi Sekinesi

Nigar, Şah Nigar- şairin sevgilisinin adıdır. Eyni zamanda tələbəykən şairə maddi olaraq kömək edib onu oxudan qadının adı da Nigar vəya Şah Nigardır.

Əminə- şairin xanımının adıdır.

**9-Axirət ilə bağlı məfhumlar**
Qəza və qədər, axirət, məhşər, həşr, qiyamət, axır zaman, cənnət, behişt, cinan, xuld, cəhənnəm, duzax, əraf, din, iman şəirət, mömin, Müsəlman, dəstamaz, namaz, oruc, zəkat vb ifadələr Nigari Divanında çox keçir.

Cenneti ashab-ı safanın müdam
Yar ile bir guşe-i tenha imiş

Tizdir nar-ı firakın elem-i duzahdan
Yiridir hecrine nisbet ana Araf diyem

**10-Nigarinin Şeirlərində Keçən Diqər Etiqadi Məfhumlar-** Ölüm, Əcəl, Ruh, Pəri, Cin, Şeytan, İblis vb.

**11-Başqa Dinlərlə Bağlı Məfhumlar-** Bütpərəstlik, Lat u Menat, Atəşpərəstlik, Zərdüşt, Əhriman, Hörmüz,

Eyle rindane amel zühd ü riyayı terk it
Kalmaya sinedə asla eser-i Lat [u] Menat

**12-Nigari Divanında Keçən Təriqət Adları**
Nigari Divanında təriqət adlarından çox bəhs olunur. Bunlar, Nəqşibəndi, Mövləvi, Məlami, Ələvi, Xarici, Rafizi, İsəvi, İsraili, Musəvi, Süfyani, Muavi, Yezidi, Mərvani, Həccaci, Şirmani vb. dir.

**13-Nigari Divanında Keçən Bəzi Təsəvvüfi Məzmunlar**:
Seyid nigari XIX əsrdə təsəvvüfü həm yaşayan həm də yaşadan şairlərimizdəndir. O, mənsubu olduğu Nəqşibəndiyyə təriqətinin şeyxidir. Təsəvvüfün və təriqətin ədəb-ərkanını bilən, müridlər yetişdirən şair, şeirlərində təsəvvüf ideyalarını coşqun bir şəkildə əks etdirmişdir. Onun şeirlərində Qaf, Tur,

Sina, qələndər, abdal, dərviş, pir, pir-i mugan, mürşid, şeyx, mürid, talib, köçək, dərgah, xanəgah, xərabat, meyxana, savmaa, təkyə, xirqə, təcəlli, cəzbə, hal, təcrid, təcərrüd, qət-i təalluk, uzlət, xəlvət, riyazət, qənaət, səbr, fəraqət, ixlas, fəqr, kəşf ü kəramət, vəlayət, heyrət, məlamət, qeyb, əzəl, qədim, bəzm-i ələst, bəzm-ı əzəl, cövhər, araz, istiğna, bəla, can gözü, vəhdət, kəsrət, fəna, bəka, həqiqət, batin, zahir, masiva, nəfs, qürur, təkəbbür, riya, tərk, vird, zikr, dünya, aləm, cahan, zəmin, rind, zahid, sufi, vaiz vb təsəvvüfi ifadələrdən geniş bir şəkildə istifadə olunmuşdur.

Sözsüs ki Seyid Nigari kimi mütəsəvvif bir şairin dini-təsəvvüfi görüşləri haqqında burada təfərrüatlı məlumat vermək imkan xaricindədir. Biz bu kiçik məqalədə müxtəsər olaraq Nigari şeirlərində din və təsəvvüfün necə əks olunduğunu ifadə etmək istədik.

**Ədəbiyyat**


Algar H. "Hacegan" Maddesi. DİA. C.XIV. Ankara,1996. 431s.

Alı Çələbioğlu Yahya Çələbi; Seyid Nigari, Xaki-Payin-Taci-sərim, Azərbaycan Nəşriyyatı, Bakı, 2004, 335 sah.

Altıntaş H. Tasavvuf Tarihi, Ankara: Üniversitesi İlahiyat Fakültesi Yayınları. Ankara,1986.

Altunbaş K. Divan-ı Seyyid Nigari. Cilt I-II, Ekim 2004, Samsun, S. 639 +662

Azərbaycan ədəbiyyatı Tarixi, II. Cild, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1960.

Bilgin, A. Divan-ı Seyyid Nigari, Kule İletişim Hizmetleri Yayınları. İstanbul, 2003.

Eraydın S. Tasavvuf ve Tarikatler, Marmara Üniversitesi İlahiyat Fakültesi Yayınları. İstanbul,1997, 518 s.

Fidan M.E. Tarihi Gelişimi İçerisinde Sufilik, Umran Yayınları. İstanbul,1997. 243 s.

Qasımova A. Füzuli Yaradıcılığında Quran Rəvayətləri. Bakı Universiteti. Bakı, 1995. 190 s.

Kara M. Tasavvuf ve Tarikatler Tarihi, Dərgah Yayınları. İstanbul,1990. 387 s.

Köçərli, Firudun Bəy; Azərbaycan ədəbiyyatı, Cilt 1, Bakı, 1981.

Kurnaz C. Hayali Bey Divanının Tahlili. Milli Eğitim Bakanlığı Yayınları. İstanbul,1996. 800s

Tolasa H. Ahmed Paşanın Şiir dünyası. Akçağ Yayınları. Ankara, 2001. 536s.

Türk Dili ve Edebiyatı Ansiklopedisi, Dərgâh Yay. Cilt 7, İstanbul, 1990.

Kösoğlu N. Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi, Azərbaycan Türk Edebiyatı, Cilt 3, Kültür Bakanlığı Yayınları. Ankara,1993.